# OXUCULARA POETİK FƏLSƏFƏ TOPLUSU — SONETLƏR TƏQDİM EDİLİR

***«Vışka»nın oxucularına şeir və tərcümələri ilə tanış olan şair, M.Ş.Vazeh adına Mərkəzi Kitabxananın Fəxri oxucusu Zeynəb Cəmaləddinin «Sonetlər» silsiləsi insan mənəviyyatı, cəmiyyət və əxlaqi dəyərlər üzərində qurulmuş poetik fəlsəfə toplusudur. Bu sonetlərdə şair həyatın işıq və qaranlıq tərəflərini, insan xarakterindəki ziddiyyətləri və əxlaqi seçimləri dərin təhlil edir.***

Şeirlərdə yaxşılıq və pisliyin daim bir mübarizədə olduğu vurğulanır. İnsanların vicdanlı, dürüst və əxlaqlı davranışlarının onların mənəvi yüksəlişinə səbəb olduğu göstərilir. Həsəd, paxıllıq, riyakarlıq və eqoizm kimi mənfi xüsusiyyətlər cəmiyyətə və fərdin özünə vurduğu ziyan baxımından tənqid edilir. Eyni zamanda, ədalət, səmimiyyət, vicdan kimi müsbət keyfiyyətlərin insanı ucaltdığı qeyd olunur.

Sonetlərdə təkcə fərdi düşüncələr deyil, həm də sosial problemlərə toxunulur. Müəllif cəmiyyətin dəyərlər sistemindəki pozuntulara, insanların bir-birinə qarşı rəftarına, doğruluq və əyriliyin toqquşmasına işıq salır. Onun poetik üslubu obrazlı təsvirlər və dərin fəlsəfi qənaətlərlə zəngindir.

Sonuncu sonet isə əvvəlki bütün məqamları ümumiləşdirərək, oxucuya bu ideyaların bir-biri ilə necə bağlı olduğunu göstərir. Bu silsilə, sadəcə poetik bir ifadə tərzi deyil, eyni zamanda, oxucunu düşünməyə, daxili dünyasını analiz etməyə çağıran mənəvi bir bələdçidir.






## SONETLƏR

**1.**

***Yaxşılıq daima qalar dünyada,***
*Aləmi var edən xeyir əməldir.*
*Hər bir fərd dəryada bəlkə tək ada,*
*Lakin yaşamına birlik təməldir.*

*Rəqabət, həsəd də sağlam olmalı,*
*Bundan yüksəlişlər doğulmalıdır.*
*Qəlbə düşüncədən işıq dolmalı,*
*Pislik yox, yaxşılıq çoxalmalıdır.*

*Bir zaman insanlar yarışsalar da,*
*İrəli çıxmaqdı məramı, qəsdi.*
*İndi geri qalan, lilli sularda,*
*Önündə gedəni dartır, bu pisdi.*

*Saflıqla yüksəlir bu bəşəriyyət,*
*Paxıllıq torpağa çəkəcək əlbət.*

**2.**

***Pislik də səd heyif, düşür yaddaşa,***
*İstəsən, sən onu silə bilməzsən.*
*Yığılıb üst-üstə, dönər bir daşa,*
*Əriməz, əzilməz nə qədər əzsən.*

*Xeyrin arxasında gizlənibdi şər,*
*Gəzər kölgə kimi, əsla yox olmaz.*
*Şişib, çoxalacaq üz versə bəşər,*
*Qaranlıq quyu tək heç dibi dolmaz.*

*Nə qədər nazilib, incəlsə də haqq,*
*Zülmətin bağrına düşən ağ olar.*
*Özünün qənimi olacaq nahaq,*
*Artıb böləndükcə, cəbhə çoxalar.*

*Daim savaşdadır işıqla zülmət,*
*Dünyanı gözəllik alacaq əlbət.*

**3.**

***Sərvət tay olarmı pak, təmiz ada?***
*Hər şərtdə mərd olmaq hünər işidir.*
*Vicdanın səsidir dürüstlük, ya da*
*Doğuşdan yaranan can vərdişidir.*

*Pul-para qazanmaq halallıq ilə,*
*Qəlbə zinət verib, hörmət artırar.*
*Babalar vurmazdı haram pay dilə,*
*Deyərdi düzgünlük oddan qurtarar.*

*Həyatın mənası fərqinə varmaq,*
*Ruh qızıl torda da dustaq olmasın.*
*Nəfsin zəncirini səbatla qırmaq,*
*Kimsə pis adətə bağlı qalmasın.*

*İstək şiddətiylə zülmətə çəkər,*
*İnsan zəkasıyla qaranlıq sökər.*

**4.**

***Dəyər verə bilən çəkəcək başa,***
*Zərgər zərin yerin tez biləcəkdir.*
*Nakəsi bəzəyib tutsan daş-qaşa,*
*Yenə kimliyini bildirəcəkdir.*

*Əxlaq təkcə zina etməmək deyil,*
*Sözü öz yerində, doğru danışmaq.*
*Yersiz maraq hissi çirkin bir ziyil,*
*Həm böhtan, ya qeybət, həddini aşmaq.*

*Gözünlə boyaboy süzüb, baxınmaq*
*Bəlkə qarşındakın rahatsız edir.*
*Söhbət eləyərkən əllə toxunmaq,*
*İnsanın ruhunu çeynəyib, didir.*

*Gözəl düşüncədən doğar zərafət,*
*Gəvəzə anlamaz nədir bu hikmət.*

**5.**

***Bəzən sağ göstərib sola vuran var,***
*Saxta gülüşlərə aldanır insan.*
*Niyyətlər gizlidir, əməllər aşkar,*
*Deyildir qəlbləri anlamaq asan.*

*Bilirlər baş vurub üzən ilanlar,*
*Dəryanın suyundan quru çıxmağı.*
*Çoxdan öyrənibdi rəngli yalanlar.*
*Dögrunun gözünə dimdik baxmağı.*

*Adı dost yalançı — sərab, ya ilğım.*
*Azdırar o səni məsafələrdə.*
*Ən sakit insanı tanıdar çılğın,*
*Yaxını ən uzaq edə bilər də.*

*Duyğu oyunları dönüb vərdişə,*
*Bədən dili dərsi keçməyir işə.*

**6.**

***Hər kəs dürüstlüyə mübah yol deməz.***
*Bədəli vardırsa, çoxu qaçacaq.*
*Əqidə hər zaman qazanc gətirməz,*
*Mənəvi zirvəyə ucaldar ancaq.*

*Daxili kimliklə sənin sazişin,*
*Bəzən əngəl olur çıxmağa yoldan.*
*Ruhunu azdırmaz xoş nəvazişin,*
*İstər sağdan yanaş, ya da ki, soldan.*

*Əsla belə obraz — deyil lovğalıq,*
*Özünü öyənlər hər şeyə dargın.*
*Eqolu — hər kəsə edər dargalıq,*
*Bədgüman — yalançı, özünə vurğun.*

*Sadəlik-keyfiyyət, amma bir mərəz,*
*Təkəbbür özündə gizlədir qərəz.*

**7.**

***Pambıqla baş kəsmək hünər sayılar,***
*Boynun qopar gedər, ruhun da duymaz.*
*Zərərə uğrayan bəlkə ayılar,*
*Ya da heç özünü rəncidə saymaz...*

*Həmişə belədir işi dünyanın,*
*Hörümçək tor qurar, milçək ovlanar.*
*Qarışıq bazardır sanki dörd yanın,*
*Tamahkar, sadəlövh asan tovlanar.*

*Tərifə, ilgiyə möhtac olanlar,*
*Pərgar dil əhlinə tez yaxın gələr.*
*Günbəgün incəlir türlü yalanlar,*
*Seçilmir əslindən saxta nüsxələr.*

*Baxsan, hər canlının bircə üzü var,*
*İnsanda gizlidi tüm yaratıqlar.*

**8.**

***Başından olsan da ruhun inciməz,***
*Əgər dost görünsə, gizli düşmənin.*
*Nə dəyər xətrinə, ya sərt söz deməz,*
*Bilər zamanını yara deşmənin.*

*İndi ataların yeni sözü var,*
*Bu günün kinini saxla sabaha.*
*Nə qədər yaxınsa sənə doğmalar,*
*Rəqibə məhrəm ol, bir addım daha.*

*Elə şirin-şəkər gülər gözündən,*
*Ta ki, yaxşı bilsin zəif bəndini.*
*Sən şübhə edərsən bəzən özündən,*
*Bilməzsən küt salan odur kündəni.*

*Şüşə cilalanar, xislətin danar,*
*Almazın yanında çıraq tək yanar.*

**9.**

***İstərsək həyatda olsun ədalət,***
*Onu qəlbimizdə edək bərqərar.*
*Tutmasın ürəyi kəsif ətalət,*
*Vicdan hakim olsun, versin düz qərar.*

*Bəlkə mümkün deyil bitərəf olmaq,*
*Ağırdır mizanın gözü, biz olan.*
*Çətindir dünyadan təsəlli almaq,*
*Bu ucdan boşalan, o yandan dolan.*

*Səhvini özünə etiraf edib,*
*Haqqın qarşısında düşün, hesab ver.*
*Üzdə gülümsəyib, arxada «didib»,*
*Kimsənin gözündə heç axtarma tir.*

*Təmiz düşüncələr uğur gətirər,*
*Kin, həsəd paxıllıq içdən bitirər.*

**10.**

***İlk öncə özündən başlamaq gərək,***
*Əgər istəyirsən dünya düzəlsin.*
*Pozular, əyərsən haqqı lap çərək,*
*İstər el yığışıb yan-yana gəlsin.*

*Təkcə mən tullasam, neyləyər axı,*
*Deyib, yerə atsan, kağız, ya zibil,*
*Sənin tək edəcək bunu bir çoxu,*
*Gəzdikcə önünə çıxar hər qəbil.*

*Xalq üçün qoyulmuş oturacaqlar,*
*Bəzən sındırılır dayanacaqda.*
*Parklarda alətlər, sallanacaqlar,*
*Dağılıb tökülür küncdə-bucaqda.*

*Tək-tək kiçiksə də həcmi pisliyin,*
*Üst-üstə toplansa dağ olar, bilin.*

**11.**

***Çox şeyə yol açır kin ilə nifrət,***
*Pisliyin mayası paxıllıqdadır.*
*Mizana bununla daş qoyan, əlbət,*
*Min cür bəhanəylə özün aldadır.*

*Fitnə-fəsad çıxar, böhtanlar doğar,*
*Rəqibi yolundan götürmək üçün.*
*Nəinki ürəklər, lap evlər yıxar,*
*Həsəddən alarsa bir insan gücün.*

*Hər kürək güvənli, ya fərd mərd deyil,*
*Mehriban görünər, qəlbi saf olmaz.*
*Çiynində yükünə əl uzadan, bil,*
*Maraq güdməyirsə, bəlkə də almaz.*

*Həyat bir oyundur, oynamaq gərək,*
*Zərərə uğrayar, çünki saf ırək.*

**12.**

***Arınsın həsəddən, fəsaddan ürək,***
*Yoxsa cəng eləyir qəlbi paxılın.*
*Dizi üstündədir onun duz-çörək,*
*Özgə uğuruna yanıb-yaxılır.*

*Bəzən çox kasıba əl tutan biri,*
*İstər ki, bununla ucalsın adı.*
*Məzlumun başından hey basar geri,*
*Bilsin özü öndə, yetim daldadı.*

*Əndişə, savaşla gün keçib gedər,*
*Yaşam duyğusunun bir qolu-qorxu.*
*Diri qalmaq üçün can hücum edər,*
*Ya da daş altında gizlənər çoxu.*

*İnstinkt — nə gördün, deyir, götür, qap,*
*Şüursa aliləş, nurun yolun tap.*

**13.**

***Hərdən tapındığın uca dağ olar,***
*Qanad zəncirlisə, yüksələ bilməz.*
*Qaranlıq çoxalsa, ziya azalar,*
*Aydınlıq zülmətlə bir yerə gəlməz.*

*İşığı həbs etsən qara qutuya,*
*Şəfəq öz gücünü necə göstərər?*
*Sadəcə, keçinər gün saya-saya,*
*Çətin, faydasını aləmə verər.*
*Cəhalət hörülmüş qalın divardır,*
*Nuru nə qaplayar ondan mükəmməl?*
*Hər canın içində bir şölə vardır,*
*Əngin üfüqləri — bəsirət, əməl!*
*Mühiti gecədir, ta yaranandan,*
*Yarasa günəşi sevməyir ondan.*

**14.**

***Əfsus, sığındığın kor uçurum, dar,***
*Olarsa, qanadın nə xeyri sənə?*
*Əngin arzuların həbsə giriftar,*
*Özün toranlıqda qalarsan yenə.*

*İçində Tanrının əmanətiylə,*
*Nə qədər imkanlar yox olur gedir.*
*Zülmət dustaq edir, öz qüdrətiylə,*
*Elə bələkdəcə nuru məhv edir.*

*Təzadlar saxlayır dəngədə bəlkə,*
*Dünya yaranandan cəngdə xeyir-şər.*
*Yaxşı-pis birləşir həlqəbəhəlqə,*
*Bir udum havaya çırpınır bəşər.*

*Dəyişkən, nisbidir gözəllik özü,*
*Acızdir hikmətdən şairin sözü.*

**15.**

*(Öncəki 14 silsilə sonetin ilk sətirlərindən düzəldilib)*

***Yaxşılıq daima qalar dünyada,***
***Pislik də səd heyif, düşür yaddaşa.***
***Sərvət tay olarmı pak, təmiz ada,***
***Dəyər verə bilən çəkəcək başa.***

***Bəzən sağ göstərib, sola vuran var,***
***Hər kəs dürüstlüyə mübah yol deməz.***
***Pambıqla baş kəsmək hünər sayılar,***
***Başından olsan da ruhun inciməz.***

***İstərsək həyatda olsun ədalət,***
***İlk öncə özündən başlamaq gərək.***
***Çox şeyə yol açır kin ilə nifrət,***
***Arınsın həsəddən, fəsaddan ürək.***

***Hərdən tapındığın uca dağ olar,***
***Əfsus, sığındığın kor uçurum, dar.***